# Heydər Əliyevin Naxçıvanda ucaltdığı şanlı bayraq

**Şanlı tariximizin dərinliklərindən, savaş meydanında qəhrəmanlarımızın nərələrindən, milyonların arzusundan, ana torpaq uğrunda canını qurban verən şəhidlərin qanından yoğrularaq azadlıq, müstəqillik simvolumuza çevrilən üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımız bu gün haqq etdiyi ən ali məqamda qərarlaşıb, ən uca zirvələrdə məğrur-məğrur dalğalanır. Azərbaycan adlı məmləkətin tarixinə, bu gününə, gələcəyinə əzəmətlə əbədi işıq saçan bu bayrağın keşməkeşli, qürur dolu azadlıq dastanı xalqımızın qürur mənbəyidir.**

Uğrunda milyonların hər an can verməyə hazır olduğu Azərbaycan bayrağını cümhuriyyət qurucuları ilk dəfə 28 may 1918-ci ildə gənc dövlətimizin başı üzərinə qaldırdılar: "Bir kərə yüksələn bayraq, bir daha enməz", dedilər.

70 illik istibdada, zülmə baş əyməyən məğrur Azərbaycan bayrağını yeni müstəqil Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyev 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikasında bir daha enməyəcək şəkildə dalğalandırdı:

Ümummilli Lider "İndi dünyada müstəqil Azərbaycan dövləti var. Onun milli dövlət bayrağı var, milli himni var, milli gerbi var. Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dövlət bayrağı bütün beynəlxalq təşkilatların iqamətgahları qarşısında dalğalanır, müstəqil Azərbaycanın başı üstündə dalğalanır və daim dalğalanacaqdır, bu yüksəkliklərə qalxmış bayraq bundan sonra heç vaxt enməyəcəkdir", söylədi.

Kölgəsi düşdüyü qaraca torpağı gülüstan Vətənə çevirən Azərbaycan bayrağını ölkəmizin tarixindəki ən qüdrətli məqamına yetirən Prezident İlham Əliyev şah zirvəyə ucaldaraq, ədalət ənginliklərində bərqərar etdi.

Qarabağın xilaskarı İlham Əliyev "Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir", dedi.

## Üçrəngli bayrağın fəlsəfəsi

Qürurverici gerçəklikdir ki, Azərbaycanın ta qədim zamanlardan dövlətləri və bayraqları olub. Qəhrəmanlarımızın döyüşlərdə öz bayraqlarını sancdıqları yer onlar üçün müqəddəs ünvana, ana torpağa çevrilib. Buna görə də ulu babalarımız bayrağa sancaq deyiblər. Tariximizdə silinməz izlər qoyan Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər... kimi güclü dövlətlərimizin hər birinin müstəqillik rəmzi olan bayraqları olub. Bu bayraqlar cəng meydanlarında qalibiyyətlə ucaldılıb.

Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı ilk dəfə 9 noyabr 1918-ci ildə Bakıda, hökumətin iclasında qəbul edilib və iclasın keçirildiyi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olub.

Xalqımızın milli-mənəvi dəyərlərindən ilhamlanaraq yaradılan və özünəməxsus fəlsəfəsi olan üçrəngli bayrağımızın rəngləri istiqlal ideologiyasının üç təməl prinsipini özündə ehtiva edir. Üç rəngli, ay-ulduzlu bayrağımız xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir.

## Heydər ƏLİYEV: "Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq"

"Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən etdik. Hələ Kommunist Partiyası da var idi, sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq".

Ulu Öndər Heydər Əliyevin səsləndirdiyi fikirlərdən gətirdiyimiz bu iqtibasda da vurğulandığı kimi, 1990-cı ildə Azərbaycan milli bayrağının Naxçıvan Muxtar Respublikasında dalğalandırılması ölkəmizin, xalqımızın tarixinə yazılmış müstəsna əhəmiyyətə malik hadisələrdən biri oldu. Bu hadisəni əlahiddə edən Azərbaycanın ozamankı real vəziyyəti idi. Həm dövr, həm də baş verən siyasi proseslər Azərbaycanın müstəqillik simvolu olan üçrəngli bayrağının açıq-aydın ölkəmizin ərazisində qaldırılmasını mümkünsüz edirdi. Ancaq Ulu Öndər Heydər Əliyevin nümayiş etdirdiyi şəxsi şücaət və qətiyyət mümkünsüzü gerçəyə çevirdi. Tiran rejimin gözü qarşısında cümhuriyyətin yadigarı olan üçrəngli bayraq əzəmətlə dalğalandırıldı. Bununla da Azərbaycanın müstəqilliyi mövcud təhlükələrə, təzyiqlərə rəğmən faktiki olaraq elan olundu.

Ümummilli Lider Heydər Əliyev yeni müstəqil Azərbaycanın ilk təməlini elə həmin gün - 17 noyabr 1990-cı ildə qədim yurdumuz Naxçıvanda atdı, milli dirçəlişdən milli zəfərə aparan tarixi yolun bünövrəsi qoyuldu.

Ulu Öndər Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin dövlət bayrağı ilə əlaqədar qəbul etdiyi qərara dair fikrini belə bildirmişdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

## Dünyanın ən böyük bayrağı

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" sərəncamı dövlət bayrağının dövlət rəmzləri sırasında xüsusi yerini müəyyən edir. Dövlət bayrağı meydanı Bakının ən görməli yerlərindən biridir. Dünyanın ən böyük bayrağı bu meydanda dalğalanır. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

Bu gün dünyanın hər yerində qürurla dalğalanaraq müstəqil, suveren Azərbaycanın gerçəklərini bəyan edən Azərbaycan bayrağı haqq uğrunda mübarizə yolumuzda həmişə xalqımıza mayak olub.

Uca millətimiz hər zaman bayrağa mənliyi, kimliyi kimi baxıb, onu qeyrət, qəhrəmanlıq simvolu olaraq hər zaman başının üstündə, ürəyinin üzərində gəzdirib. Ən qürurlu anlarında da, ən hüznlü məqamlarında da müqəddəs bayrağından güc alıb, ən dar məqamlarında ona sığınıb, ona tapınıb.

Azərbaycan bayrağı hazırda Qarabağda dalğalanaraq özünün şah zirvəsinə yüksəlib. Qalib lider İlham Əliyev bayrağımızı işğaldan azad edilən ərazilərimizdə, bütöv Azərbaycanda dalğalandırmaqla, son neçə yüz il ərzində tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum olmuş Azərbaycan xalqının milli mənliyini, gücünü özünə qaytarıb. Haqq-ədaləti bərpa edib.

Necə ki bu barədə 2010-cu ildə Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində Prezident İlham Əliyev deyib: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!"

Bəli, o gün - 2020-ci ildə apardığımız Vətən müharibəsində qazandığımız Zəfər gəlib çatdı.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 9 noyabr (№240).- S.14.